## XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI

UOT 37.01.

***Firuzə Ədalət qızı Rzayeva***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# CÜTLƏRLƏ VƏ QRUP ŞƏKİLİNDƏ MÜSTƏQİL İŞİN TƏŞKİLİNİN SƏMƏRƏLİ YOLLARI

***Фируза Адалат гызы Рзаева***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# ЭФФЕКТИВНЫЕ СПОСОБЫ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ В ПАРАХ И ГРУППАХ

***Firuza Adalat Rzayeva***
*doctor of philosophy in pedagogy, assistant professor*
*Azerbaijan University of Languages*

# EFFECTIVE WAYS OF ORGANIZING INDEPENDENT WORK IN PAIRS AND GROUP

**Xülasə:** Tələbələrin müstəqil işləri yalnız tədris tapşırıqları ilə deyil, yəni onlar konkret biliklərlə yekunlaşır, müəllimin göstərişi ilə zehni əməyin növü ilə də məşğul olurlar, müqayisələr aparılır, təhlil edilir, qruplaşdırılır və öz fəaliyyətlərini planlaşdırırlar.
***Açar sözlər:*** *pozitiv düşüncə, sərbəst iş, aktual mövzu*

**Резюме:** Самостоятельная работа студентов завершается не только учебными заданиями, но и конкретными знаниями, также посредством команды педагога занимаются умственным трудом, делают сравнения, анализируют, группируются и планируют свою деятельность.
***Ключевые слова:*** *позитивное мышление, индивидуальная работа, актуальный предмет*

**Summary:** Students individual work is not completed with only lesson tasks, concrete knowledge. They also engage with teacher guided mental work, students make comparison, analyses, generalize and group facts, plan their performances.
***Keywords:*** *positive thinking, individual work, actual subject*

Tələbənin müstəqil işi tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi fəaliyyət növüdür.

Sərbəst işlərin həcmi keçirilən mühazirələrə, seminarlara və praktik məşğələlərə ayrılan akademik saatlara müvafiq olaraq ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

Sərbəst fəaliyyət nə üçün təşkil edilir?

Sərbəst fəaliyyətin həyata keçirilməsinin məqsəd və vəzifələri nədən ibarətdir?

Əgər nə istədiyini bilirsənsə, onu əldə etməyin yollarını tapacaqsan (Jim Rohn)

Sərbəst işin təşkilinin başlıca məqsədləri, öyrənənlərin bacarıq və vərdişlərinin üzə çıxarılması və yaradıcı fəaliyyətin, tənqidi düşüncənin, tədqiqat və digər bacarıqların inkişaf etdirilməsidir. Sərbəst və yaradıcı fəaliyyət dedikdə, tələbənin müstəqil fəaliyyət göstərməsi, yeniliklər etməsi, yeni ideyalar irəli sürməsi, kəşflər etməsi nəzərdə tutulur. Fəaliyyətdə olan hər bir tələbə, müəyyən edilmiş problem üzrə axtarışlar

həyata keçirir, müxtəlif mənbələrlə tanış olur və bu zaman həm tanış olduğu fikirləri, ideyaları analiz edib problemə müxtəlif aspektlərdən yanaşır, fikirlərə münasibət bildirir, tənqidi düşüncəsini inkişaf etdirir, həm də tədqiqat bacarıqlarının təkmilləşməsinə nail olur.

Müstəqil işin təşkilinin başlıca vəzifələri, müəyyən edilmiş problemin analizi və həlli istiqamətində işlərin həyata keçirilməsi, çatışmazlıqların, boşluqların müəyyən edilib, aradan qaldırılması, problem ilə əlaqədar ideyaların, problemin həlli yollarının irəli sürülməsidir. Bilib-bilməməyimizdən asılı olmayaraq, hər problemin həlli yolları mövcuddur. Bu yolları tapmaq lazımdır.

Tapmaq üçün isə pozitiv düşüncə, çətinliklərlə mübarizə əzmi və gərgin əmək tələb olunur.

Məsələn, bildiyimiz kimi, xarici dillərin tədrisi zamanı autentik materiallardan istifadə günümüzün aktual mövzularından biridir. Xarici dilin öyrənilməsində autentik materialların istifadəsi məqsədə uyğun hesab edildiyindən, tədris prosesində bu məsələyə ciddi yanaşılması bir çoxları tərəfindən tövsiyə olunur. Lakin, problem ondan ibarətdir ki, autentik materialları tədris prosesində necə istifadə edə bilərik ki, xarici dilin mənimsənilməsinə və öyrənilməsinə nail olunsun. Hansı üsullardan istifadə etməliyik ki, autentik materiallardan istifadə uğurlu nəticələrə yol açsın.

Qeyd edilən nümunə ilə müstəqil işin vəzifələrini aydın şəkildə başa düşə bilərik.

Sərbəst işin müxtəlif növləri vardır. Məqsəd və vəzifələrə müvafiq olaraq, sərbəst işlər şer yazmaq, referat hazırlamaq, məqalə yazmaq, sorğu aparmaq, layihə hazırlamaq və başqa formalarda həyata keçirilə bilər.

Sərbəst iş individual, cütlərlə yaxud qrup şəklində reallaşdırıla bilər. Hansı formada işin təşkil olunması, əvvəlcədən müəyyən edilir.

Sərbəst işin həyata keçirilməsi zamanı başlıca meyarlardan biri, işin maraqlara müvafiq olmasıdır. Yəni, tədqiqatçı hansı məsələni araşdırmaq istəyirsə, o məsələ istiqamətində araşdırma aparması məqsədə uyğun hesab edilir. Çünki, bilirik ki, əgər insanlar daxilən motivasiya olunurlarsa, işləri daha maraqla, həvəslə yerinə yetirir və uğurlu nəticə əldə etmək istiqamətində bütün qüvvəsini səfərbər edirlər.

İndividual işin müsbət cəhətləri

1. Öz işinin ağası olmaq
2. Diqqətin bir istiqamətə yönəlməsi
3. Qərarların bir şəxs tərəfindən qəbul edilməsi
4. Müstəqil fəaliyyətin təkmilləşməsi
5. Təkbaşına işləmək bacarığının formalaşması

İndividual işin mənfi cəhətləri

1. Dəstəyin, motivasiyanın olmaması.
2. Təkbaşına fəaliyyətlə əlaqədar olaraq işin sürətlə yekunlaşmasının ləngiməsi halları.
3. Təkbaşına fəaliyyətin sıxıcı, darıxdırıcı olması.
4. Təkbaşına fəaliyyətlə əlaqədar daha çox stressin yaşanması.

Cütlərlə və qrup şəklində işin müsbət cəhətləri.

1. Bir deyil, bir çox şəxslərin fikirlərinin mövcudluğu, informasiya bolluğu.
2. Kənar dəstəyin olması.
3. Dəstəyin olması ilə əlaqədar olaraq işin daha tez yekunlaşdırıla bilməsi imkanı.

Cütlərlə və qrup şəklində işin mənfi cəhətləri

1. Fikir ayrılıqlarının yaşanması.
2. Fikir ayrılıqlarının olduğu təqdirdə vaxt itkisinə yol verilməsi.
3. Yekun nəticəyə gəlməkdə problemlərin yaşanması halları.

Bildiyimiz kimi, tədqiqat ciddi məsuliyyət, zəhmət tələb edən, gərgin bir fəaliyyətdir. Gərginliyin aradan qaldırılması, işin daha maraqlı olmasını təşkil etmək həm kənar faktorların təsiri ilə mümkün olur, həm də şəxsin daxili qüvvəsini nə dərəcədə kənar dəstək olmadan səfərbər edə bilmək iradəsi, qabiliyyəti ilə.

Bəzi insanlar vardır ki, hər hansı bir fəaliyyətlə məşğul olarkən, onlar üçün kənar dəstəyin olması əvəzolunmaz bir effekt yaradır. Kənar dəstək olmadıqda bu tip insanlar tez ruhdan düşür və hətta bu bəzi hallarda işin yarımçıq qalması ilə də nəticələnir. Ona görə də bu tip insanlar sərbəst işi individual olaraq deyil, başqa insanlarla birgə əməkdaşlıq formasında həyata keçirirlər. Son məqsəd müvəffəqiyyətli nəticələr əldə etmək və məmnuniyyət olduğundan, individual xüsusiyyətlərə hörmət edilməli, insanların hansı formada işləmək istədiyi müəyyən edilərək, o istiqamətdə fəaliyyət göstərməsi təmin edilməlidir.





Bir məsələni də qeyd etmək lazımdır ki, birgə əməkdaşlıq olduqda işi daha sürətli şəkildə həyata keçirmək və daha tez nəticə əldə etmək mümkün olur. Lakin, unutmaq olmaz ki, təkbaşına olaraq da işi sürətli şəkildə və tez bir zamanda tamamlamaq mümkündür. Bu, həmin şəxsin potensialından, imkanlarından, işə olan münasibət və məsuliyyətindən, o cümlədən, işin məzmunundan, formasından asılı olan bir məsələdir.

İşi individual olaraq icra etmək istəyən şəxslər isə, kənar müdaxilələrin olmamasına üstünlük verir, müdaxilələr olduğu təqdirdə işini səmərəli şəkildə həyata keçirməkdə maneələrlə üzləşdiyindən, təkbaşına fəaliyyətə üstünlük verirlər.

İndividual olaraq işin təşkil edilməsi faydalı hesab edilir. Çünki, bu insanların təkbaşına fəaliyyət göstərmək qabiliyyətini inkişaf etdirir və başqalarının asılılığından azad edir. İnsan müstəqil işləyərək özünü yenidən kəşf edir. Hansı çətinliklə qarşılaşdıqda onu necə həll edə biləcəyini öyrənir, çətin situasiyalarda vəziyyəti idarə etməyi, vəziyyətdən çıxmaq texnikalarını özündə inkişaf etdirir. Lakin, işin mahiyyətini də nəzərə almaq lazımdır, individual olaraq fəaliyyət göstərmək hər zaman faydalı olmaya da bilər.

Psixoloq Anders Erikson qeyd edir ki, hər hansı bir qabiliyyəti formalaşdırıb inkişaf etdirməyin başlıca yollarından biri zəif nüansları müəyyən edib, onların aradan qaldırılması istiqamətində addım-addım irəliləməkdir.

**Problemin aktuallığı.** Birgə əməkdaşlıq olduqda işi daha sürətli şəkildə həyata keçirmək və daha tez nəticə əldə etmək mümkün olur. Lakin, unutmaq olmaz ki, təkbaşına olaraq da işi sürətli şəkildə və tez bir zamanda tamamlamaq mümkündür.

**Problemin yeniliyi.** Cütlərlə və qrup şəklində müstəqil işin səmərəli təşkili diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, ingilis dili müəllimləri üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. **Усманова Н.Н.** Организация самостоятельной работы на уроках иностранного языка https://open-lesson.net/2340/
2. Самостоятельная работа студентов на уроке английского языка https://pedsovet.org/publikatsii/bez-rubriki/samostoyatelnaya-rabota-studentov-na-uroke-angliyskogo-yazyka


**E-mail:** fira_350@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* ***A.N. Abbasov***,
*ped.ü.fəls.dok.* **G.X. Şirəliyeva**
**Redaksiyaya daxil olub:** 17.12. 2018